*Bəkir Nəbiyev – 95*

# Böyük ədəbiyyatşünaslarımızın davamçısı

**Ömrünü milli bədii söz sənətinin inkişafına yolunda şam kimi əridənlərdən biri də ədəbiyyatşünas-alim, Əməkdar elm xadimi, “Şöhrət” və “İstiqlal” ordenli akademik Bəkir Nəbiyev olub. Klassik və müasir ədəbiyyatımız haqqında sanballı əsərlər yazmış və yorulmaz fəaliyyəti ilə Azərbaycan ədəbiyyatına böyük töhfələr vermiş görkəmli alimi ehtiramla yad edirik.**



Bəkir Əhməd oğlu Nəbiyev 1930-cu ilin avqust ayında Ağdaş rayonunun Üçqovaq kəndində ziyalı ailəsində anadan olub. Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirib. Məmməd Arif, Əli Sultanlı, Mir Cəlal, Cəfər Xəndan, Məmməd Cəfər, Həmid Araslı, Abbas Zamanov, Feyzulla Qasımzadə kimi böyük ustadlardan dərs alması sayəsində və özünün söz sənətinə tükənməz sevgisi ilə elmin dərinliklərinə qəvvas kimi baş vurub. Universitetin aspiranturasında təhsilini uğurla davam etdirərək, 1960-cı ildə “Firudin bəy Köçərlinin həyat və yaradıcılığı” mövzusunda namizədlik dissertasiyasını müdafiə edib.

Ədəbi fəaliyyətə “Ədəbiyyat qəzeti”-nin 1951-ci il 4 noyabr tarixli nömrəsində dərc edilən “Dama-dama göl olar” rəyi ilə başlayan gənc müəllim, jurnalist, tənqidçi, tədqiqatçı-ədəbiyyatşünas, redaktor, tərcüməçi kimi o dövrün nüfuzlu qəzetlərində çalışıb. Yazıçılar və Jurnalistlər birliklərinə üzv qəbul olunub. Bəkir Nəbiyev ədəbi prosesə, klassik ədəbi irsə, ədəbi tənqidə və əlaqələrə, poeziyada sənətkarlıq məsələlərinin tədqiqinə 50-dən çox kitab, 900-dən çox məqalə və resenziya həsr edib. Fundamental əsaslı, dərin bilikli alim kimi keçmiş SSRİ-də, eləcə də Türkiyə, İran və İraqda yüksək elmi səviyyəsini sərgiləyə bilib.

Akademik Bəkir Nəbiyev XX əsrin ortalarından etibarən ədəbi prosesin və ədəbi-nəzəri fikrin daim diqqət mərkəzində olub, yorulmadan bədii irsimizi tədqiq edib.

Elmi-ictimai fəaliyyətinin 1-ci mərhələsini hər bir görkəmli elm adamı üçün fəxr sayıla biləcək məhsuldarlıqla, intensiv və çoxşaxəli axtarışlarla başa vuran Bəkir Nəbiyev 2-ci mərhələyə Azərbaycan Milli Elmlər Akademiyasından başlayıb. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutuna kiçik elmi işçi qəbul edilən gənc tədqiqatçı çox keçmədən şöbə müdiri vəzifəsinə qədər yüksəlib. 1970-ci ildə doktorluq dissertasiyasını uğurla müdafiə etdikdən sonra Bəkir Nəbiyevə daha məsul vəzifə – Ədəbiyyat Muzeyinin direktorluğu tapşırılıb. Bu vəzifədə 15 ildən çox çalışıb, muzeyin daha da zənginləşməsində, dövrün tələbləri əsasında yenidən qurulmasında, beynəlxalq aləmdə tanıdılmasında böyük rol oynamaqla yanaşı, elmi-tədqiqat fəaliyyətini də inadla və inamla davam etdirib.

Elm, ürfan, yaradıcılıq yolunun 2-ci mərhələsində alimin Azərbaycan ədəbiyyatının, mədəniyyətinin müxtəlif məsələlərinə dair çoxsaylı kitab və məqaləsi çap olunub. Mərhum akademikin “Görkəmli tənqidçi və ədəbiyyatşünas” (1963), “Süngüyə çevrilmiş qələm” (1970), “Ədəbi düşüncələr” (1971), “Tənqid və ədəbi proses” (1976), “Böyük Vətən müharibəsi və Azərbaycan ədəbiyyatı” (1977), “Kamalın təntənəsi” (1981), “Söz ürəkdən gələndə” (1984), “Roman və müasir qəhrəman” (1987), “Özümüzdən başlayaq” (1990), “Didərgin şair” (1995), “Çətin yollarda” (2000), “İstiqlal şairi” (2001), “Xəzan vurmasın” (2006), “Hərənin öz yolu var” (2007) və s. kitabları tənqid və nəzəri fikir tariximizin yarıməsrlik (1960–2010) dövrünü mərhələli surətdə əks etdirir. Bu əsərlər heç vaxt köhnəlməyən müasir təfəkkürlə, yüksək tarixilik duyğusu ilə qələmə alınıb.

Görkəmli söz adamları Bəkir Nəbiyevi layiqincə səciyyələndiriblər. Bəzi sitatlar gətirək. Professor Mir Cəlal Paşayev: “Bəkir Nəbiyev müasir ədəbi prosesi diqqətlə izləyən bir tənqidçi kimi tanınır. Təsadüfi deyil ki, onun əsərində müasir roman və müsbət qəhrəman, nəsrimizdə konflikt və xarakterin ifadə tərzi, psixoloji təhlil kimi yaradıcılıq problemlərinə dair mülahizələrində yorulmaz bir tədqiqatçının əməyi ilə yanaşı, fəal bir tənqidçinin təfəkkürü də özünü göstərir”.

Akademik Həmid Araslı: “B.Nəbiyevin əsərləri… müharibə dövrünün Azərbaycan ədəbiyyatının monumental mənzərəsini yaratdığı, qələbədən sonrakı ədəbiyyatda, hərbi-vətənpərvərlik mövzusunda yazılmış əsərləri sistemə salıb əsas istiqamətlərini müəyyən etdiyi üçün həm mütəxəssislərin, həm də geniş oxucu auditoriyasının rəğbətini qazanmışdır”.

Professor Cəfər Xəndan: “B.Nəbiyev hələ tələbə ikən mənim nəzərimi cəlb etmiş, yaxın gələcəkdə belə bir əsər yaza biləcəyi xüsusda təsəvvür doğurmuşdu… Mənim rəhbərliyim altında hazırlanmış 20-dək aspirant arasında B.Nəbiyev ən istedadlılarından biri sayıla bilər”.

Xalq şairi, akademik Bəxtiyar Vahabzadə: “Mənim şeir və məqalə kitablarım haqqında Bəkirin də bir neçə məqaləsi var. Mən onun “Zirvəyə gedən yolda” adlı məqaləsindən bir məqamın üstündə dayanmaq istəyirəm. Bəkir Nəbiyev həmin məqaləsində ənənə və novatorluq istilahlarının adını çəkmədən bu iki qütbün mənim yaradıcılığımdakı təzahürünü müasir poeziyamızın müstəvisində böyük, analitik təhlillə izah etmişdir. Bu məqalə yaradıcılığımın müəyyən dövrünə işıq salıb ondan sonra keçəcəyim yollara yön verdi”.

O, Azərbaycan filologiyasında mükəmməl “Bəkir Nəbiyev məktəbi”nin əsasını qoyub. Ədəbiyyatşünaslıq sahəsində yüksəkixtisaslı kadrlar hazırlanmasında xidmətləri böyük olub. Bir çox doktorluq dissertasiyaları üzrə elmi məsləhətçi, namizədlik dissertasiyaları üzrə elmi rəhbər olub. Günümüzün görkəmli alimlərindən Nizami Cəfərov, Teymur Kərimli, Məhərrəm Qasımlı, Kamran Əliyev, Şirindil Alışanlı, Muxtar İmanov, Tehran Əlişanoğlu onun yetirmələridir. Bu məktəbin nümayəndələri elmdə öz sözü, öz fikri olan nüfuzlu ədəbiyyatşünaslardır.

Akademik Bəkir Nəbiyevin zəngin fəaliyyətini dövlətimiz hər zaman yüksək qiymətləndirib. O, “Şöhrət” və “İstiqlal” ordenlərinə layiq görülməklə bərabər, Azərbaycan Respublikasının Dövlət Mükafatı ilə təltif edilib.

Böyük alim Bəkir Nəbiyev 2012-ci il martın 15-də Bakıda vəfat edib. Xalq şairi Cabir Novruzun təbirincə desək, onun tənqidçiliyi də, alimliyi də, vətəndaşlığı da məhz insanlığından bəhrələnib, su içib… Buna görə görkəmli akademik daim ehtiramla yad olunur.

*Əli NƏCƏFXANLI*
*XQ*